# ADA Universiteti

# Akademik Kataloq

# 2023-2024 Tədris ili

# MÜNDƏRİCAT


**GİRİŞ VƏ ELANLAR** ........ **3**

**ADA UNİVERSİTETİNİN QISA TARİXİ** ........ **4**

**MİSSİYA, GƏLƏCƏYƏ BAXIŞ VƏ DƏYƏRLƏR** ........ **5**

**ŞƏRƏF MƏCƏLLƏSİ** ........ **6**

**AKADEMİK QAYDALAR VƏ PROSEDURLAR** ........ **10**

Təhsil Proqramının Tamamlanması üçün Tələb Olunan Kompetensiyalar ........ 10
Qənaətbəxş Akademik Status ........ 10
Bakalavr Təhsilinin Davamlılığı Qaydaları ........ 10
Akademik və Peşəkar Məqsədlər üçün İngilis Dili Proqramında (EAPP) Davamlılıq Qaydaları ........ 11
Magistr Təhsilinin Davamlılığı Qaydaları ........ 12
Ümumi Orta Qiymət Göstəricisi ........ 12
Bakalavr Təhsil Proqramının Tələbləri ........ 13
Akademik Fəaliyyətin Qiymətləndirilməsi ........ 13
Akademik Apellyasiya Şikayətləri ........ 13
Tələbə Qeydiyyatı Statusu ........ 13
Tələbələrin Kurslar üzrə Təsnifatı ........ 15
Dərslərin Kurslar üzrə Təsnifatı ........ 15
Dərs Qeydiyyatı ........ 16
Müvəqqəti Məzuniyyətə Görə Dərslərin Dayandırılması ........ 17
Xüsusi Statuslu Dərslər ........ 19
Aktiv Tələbələr Sırasından Xaric Edilmə ........ 22

**TƏLƏBƏ QƏBULU VƏ QEYDİYYAT ŞÖBƏSİ** ........ **23**

**TƏDRİS PROQRAMLARI** ........ **25**

Təhsil Fakültəsi ........ 26
İctimai və Beynəlxalq Münasibətlər Fakültəsi ........ 29

**LÜĞƏT** ........ **31**

# Giriş və Elanlar

**Elanların Xüsusiyyəti.** Bu nəşrdə olan elanlar xəbərdarlıq edilmədən dəyişdirilə bilər və Universitet qarşısında məcburi öhdəlik kimi qəbul edilə bilməz. Universitet istənilən müddəa və ya tələbləri dəyişdirmək hüququnu özündə saxlayır. Kataloqda başqa hal nəzərdə tutulmadıqda, yalnız Baş akademik rəhbər və ya səlahiyyətli şəxs bu sənəddə dəyişiklikləri təsdiq edə bilər.

Tələbələr ADA Universitetində təhsil proqramına başladıqları tədris ilində nəşr oluanan akademik kataloqun tələblərinə tabe olurlar. Növbəti tədris illərində kataloq dəyişsə də, tələbəyə qoyulan ilkin tələblər dəyişdirilmir.

Akademik tələblərə kompetensiya , ümumi təhsil , ümumi orta müvəffəqiyyət göstəricisi, ixtisas dərsləri, ümumi proqram tələbləri və müvafiq i kurrikulum məsələləri daxildir.

Qiymətləndirmə metodları, təhsil haqqı, ödənişlər və digər məsələlər “akademik tələblər” hesab edilmir və bunlara dəyişiklik edilməsi Universitetin səlahiyyətindədir. Yeni dəyişikliklər onların xeyrinə olarsa, bakalavr tələbələri yenilənmiş akademik kataloqun şərtləri ilə məzun ola bilərlər.

**Kataloq məlumatlarına görə tələbə məsuliyyəti.** Tələbələr bakalavr və magistratura kataloqlarında olan məlumatlara görə fərdi olaraq məsuliyyət daşıyırlar. Universitet qaydalarını oxumamaq və onlara əməl etməmək tələbələri tətbiq oluna biləcək hər hansı cəza tədbirindən azad etməyəcək.

# ADA Universitetinin qısa tarixi

ADA Universiteti Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2014-cü il tarixli Sərəncamı ilə yaradılmışdır.

Universitet fundamental və tətbiqi tədqiqatların inkişafı ilə yanaşı, bakalavriat və magistratura proqramlarının həyata keçirilməsi ilə məşğul olan dövlət ali təhsil müəssisəsidir.

Universitet Azərbaycan Diplomatik Akademiyası (ADA) və İnformasiya Texnologiyaları Universitetinin hüquqi varisidir. Onlar 2014-cü ilin yanvarında birləşdirilib, ADA Universiteti yaradılıb.

6 mart 2006-cı ildə əsası qoyulan Azərbaycan Diplomatik Akademiyası 2007-ci ilin yanvarından Xarici İşlər Nazirliyinin diplomatları və dövlət qulluqçuları üçün Diplomatiya və İnkişaf İnstitutunun təşkil etdiyi təlimləri təklif etməyə başlayıb.

Akademiya 2009-cu ilin sentyabrında Diplomatiya və beynəlxalq münasibətlər üzrə ilk magistr proqramına, 2011-ci ilin sentyabrından isə Beynəlxalq münasibətlər və Biznesin idarə edilməsi üzrə iki bakalavr proqramına start vermişdir. Akademiya 2012-ci ilin sentyabrında Bakı şəhərində yeni "yaşıl" və "ağıllı" kampusa köçürülmüşdür .

Hazırda universitetin tərkibinə İctimai və Beynəlxalq Münasibətlər Fakültəsi, Biznes Fakültəsi, Təhsil Fakültəsi, İnformasiya Texnologiyaları və Mühəndislik Fakültəsi ,Hüquq Fakültəsi, Memarlıq və Dizayn Fakültəsi və Kənd Təsərrüfatı və Qida Elmləri Fakültəsi daxildir. Bütün bu fakültələrdə Universitet 12 bakalavr dərəcəsi və 12 magistr dərəcəsi təklif edir.

# Missiya, Gələcəyə Baxış  və Dəyərlər

Bizim missiyamız qlobal birliyin üzvləri ilə etika ve vətəndaşlıq hissləri əsasında sıx əməkdaşlıq edə bilən ve ünsiyyət bacarıqlarına yiyələnmiş həll təminatçıları yetişdirməkdir. Bu missiyaya nail olmaq üçün "ADA" Universiteti davamlı olaraq innovativ öyrənmə mühitində  yüksək "müəllim və alim" keyfiyyəti ilə dünya səviyyəli Azərbaycan universiteti olmağa çalışır.

Bizim əsas dəyərlərimiz bunlardır:

1. Akademik keyfiyyət  və azadlıq

2. Hesabatlılıq və birgə idarəetmə

3. Şərəf, dürüstlük və şəffaflıq

4. Müxtəliflik, əməkdaşlıq və ünsiyyət

5. Sosial məsuliyyət

# Şərəf Məcəlləsi

1. Giriş

ADA Universiteti tələbələrin, tədqiqatçıların, müəllimlərin və inzibati işçilərin təhsildə və tədqiqatda nailiyyətlər əldə etməsinə himayədarlıq edən və bu məqsəd ətrafında birləşən bir cəmiyyətdir. ADA, öz cəmiyyət üzvləri üçün mükəmməl şərait yaratmağa çalışır ki, bu da onları ruhlandıraraq dinamik tədris prosesində iştirak etmək imkanı verir. ADA, öz tələbələrinin və müəllimlərinin tədrisdə müvəffəqiyyət və nailiyyətlərinə yüksək qiymət və xüsusi əhəmiyyət verir. Buna da, yalnız elmdə düzlük, saflıq, həmçinin fərdi və qarşılıqlı məsuliyyətə yönəldilən bir mühitdə nail oluna bilər.

ADA-nın əsas fəlsəfəsi belə bir fikir ətrafında cəmləşir ki, elmdə düzlük və saflığa, qadağa və təhdidlər vasitəsi ilə deyil, daha çox elmi mədəniyyətin inkişaf etdirilməsi ilə nail oluna bilər. Elmi mədəniyyət isə düzlük və saflıq kimi dəyərləri özündə birləşdirir. Beləliklə, ADA, öz cəmiyyət üzvlərini, elmi düzlük və saflıq aşılayan bir mühitin yaradılması üçün zəruri olan qayda və prosedurlarla təlimləndirmək istəyir.

Təhsilə başlamamışdan öncə, tələbələr vaxtlarının çox hissəsini elmi/akademik düzlüyə aid ümumi qəbul edilmiş standartların müzakirəsinə həsr edəcəklər. Belə ki, istənilən mümkün anlaşılmazlıqlara və ya akademik davranış kodekslərinin qeyri-ixtiyari pozulmasına yol verilməsin.

Şərəf və Davranış Məcəlləsi, düzlük və saflığı özündə ehtiva edən mühitin yaradılması üçün vacib olan akademik qayda və prosedurlar silsiləsindən ibarətdir. O, tələbələrin, müəllimlərin və inzibati işçilərin davranışlarını istiqamətləndirmək məqsədi güdür. Eyni zamanda, onların bu Məcəlləyə əməl olunması üçün birgə məsuliyyət daşıdıqlarını da bəyan edir. Bu Məcəllədə göstərilən qadağalar, akademik davranışın ümumilikdə qəbul edilmiş standartlarının pozulmasına qarşı, həmçinin Akademiyanın nüfuzunu müdafiə etmək imkanı verən son vasitə kimi nəzərdə tutulur.

2. Akademik düzgünlük və saflığı müəyyən edən prinsiplər

2.1. Yalan danışmayın: qəsdən saxta məlumat vermək; yalan danışmaqla, saxtalaşdırmaqla aldatma və ya fırıldaqçılıq yolu ilə üstünlük qazanmaq, yaxud onların nəticələrini qəbul etməmək kimi hərəkətlər ADA-da yolverilməz hərəkətlərdir.

2.2. Aldatmayın (Dələduzluq etməyin): imtahanların, testlərin (sınaqların) və başqa tapşırıqların qaydalarının pozulması, və ya icazə verilməmiş bir köməkdən yararlanmaq ADA-da yolverilməz hərəkətdir.

2.3. Plagiatla məşğul olmayın: müəllifə istinad etmədən və ya hər hansı bir şəxsin icazəsi olmadan onun intellektual (əqli mülkiyyət) işindən istifadə etmək, o cümlədən eyni işi iki və ya daha çox dərsdə istifadə etmək ADA-da yolverilməz hərəkətdir.

2.4. Ayrı-seçkilik salmayın: irqə, cinsə, etnik mənsubiyyətə, dini etiqada, cinsi yönümə və ya əlilliyə görə ayrı-seçkilik salmaq ADA-da yolverilməz hərəkətdir.

2.5. Bu prinsipləri pozanlara kömək etməyin!

# Akademik Təqvim

ADA Universiteti iki bərabər semestr və yay sessiyasından ibarət tədris ilində fəaliyyət göstərir.

- Payız semestri sentyabr ayının ilk bazar ertəsi başlayır və tədris müddəti 15 həftə davam edir.
- Yaz semestri yanvar ayının üçüncü bazar ertəsi başlayır və tədris müddəti 15 həftə davam edir.
- Yay sessiyası may ayının dördüncü bazar ertəsi başlayır və tədris müddəti 6 həftə davam edir.

Akademik və peşəkar məqsədlər üçün ingilis dili proqramı (EAPP) təhsil proqramları ilə eyni təqvim əsasında tədris olunur. EAPP-də payız və yaz semestrləri hər biri 7.5 həftə olmaqla iki (2) sessiya şəklində aparılır. Yay sessiyası isə 6 həftə müddətində davam edir

- “Semestr daxili sessiyalar” üzrə tarixlər akademik təqvimə əlavə olunacaq və ADAUniversitetinin internet saytında dərc olunacaq.

| 2023-2024-cü tədris ili üzrə AKADEMİK TƏQVİM | |
|---|---|
| **Payız semestri** | |
| 11 sentyabr 2023-cü il | Magistratura və akalavr pilləsində dərslər başlayır |
| 20 sentyabr 2023-cü il | Dərsləri əlavə etmək/dərslərdən çıxmaq üçün son tarix |
| 08 noyabr 2023-cü il | Zəfər günü - Bayram, DƏRS YOXDUR |
| 09 noyabr 2023-cü il | Bayraq günü – Bayram, DƏRS YOXDUR |
| 16 noyabr 2023-cü il | Ara imtahanlarının qiymətləndirilməsi üçün son tarix |
| 18 noyabr 2023-cü il | Dərslərdən imtina etmək üçün son gün |
| 23 dekabr 2023-cü il | Son dərs günü |
| 24-25 dekabr 2023-cü il | İmtahana hazırlıq dövrü |
| 26 dekabr 2023-cü il – 09 yanvar 2024-cü il | Yekun imtahanlar |
| 31 dekabr 2023-cü il – 03 yanvar 2024-cü il | Yeni il bayramı - İMTAHANLAR YOXDUR |
| 13 yanvar 2024-cü il | Yekun imtahanların qiymətləndirilməsi üçün son tarix |
| **Yaz semestri** | |
| 22 yanvar 2024-cü il | Magistratura və bakalavr pilləsində dərslər başlayır |
| 31 yanvar 2024-cü il | Dərsləri əlavə etmək/dərslərdən çıxmaq üçün son gün |
| 08 mart 2024-cü il | Beynəlxalq qadınlar günü - Bayram, DƏRS YOXDUR |
| 20-24 mart 2024-cü il | Novruz bayramı - DƏRS YOXDUR |
| 03 aprel 2024-cü il | Ara imtahanlarının qiymətləndirilməsi üçün son tarix |
| 06 aprel 2024-cü il | Dərslərdən imtina etmək üçün son gün |
| 11-12 aprel 2024-cü il | Ramazan bayramı – DƏRS YOXDUR |
| 11 may 2024-cü il | Son dərs günü |
| 12-13 may 2024-cü il | İmtahana hazırlıq dövrü |
| 14-23 may 2024-cü il | Yekun imtahanlar |
| 27 may 2024-cü il | Yekun imtahanların qiymətləndirilməsi üçün son tarix |
| Müəyyən olunacaq | Məzun günü |
| **Yay sessiyası** | |
| 27 may 2024-cü il | Yay sessiyasının dərsləri başlayır |
| 28 may 2024-cü il | Müstəqillik günü- DƏRS YOXDUR |
| 01 iyun 2024-cü il | Dərsləri əlavə etmək/dərslərdən çıxmaq üçün son gün |
| 15 iyun 2024-cü il | Milli qurtuluş günü - DƏRS YOXDUR |
| 19 iyun 2024-cü il | Ara imtahanlarının qiymətləndirilməsi üçün son tarix |
| 20-21 iyun 2024-cü il | Qurban bayramı – DƏRS YOXDUR |
| 22 iyun 2024-cü il | Dərslərdən imtina etmək üçün son gün |
| 26 iyun 2024-cü il | Milli ordu günü - DƏRS YOXDUR |
| 07 iyul 2024-cü il | Son dərs günü |
| 07-08 iyul 2024-cü il | İmtahana hazırlıq dövrü |
| 09-14 iyul 2024-cü il | Yekun imtahanlar |
| 18 iyul 2024-cü il | Yekun imtahanların qiymətləndirilməsi üçün son tarix |

# Akademik Qaydalar və Prosedurlar

Bu bölmə ADA Universitetində bakalavr və magistratura təhsilinin aparılması üçün mövcud olan akademik qaydaların toplusunu ümumiləşdirir.

Tələbələr Universitet kataloqunda olan məlumatlarla tanışlığa görə fərdi olaraq məsuliyyət daşıyırlar. Universitet qaydalarını oxumamaq və onlara əməl etməmək tələbələri hər hansı məsuliyyətdən azad etməyəcək.

Tələbə və ya professor-müəllim heyəti tərəfindən müəyyən bir akademik qayda ilə bağlı məcburi əsasa görə, istisna ərizəsi verilə bilər. Belə bir ərizə yazılı şəkildə müvafiq akademik bölmənin dekanına göndərilməli, sonra isə baxılmaq üçün tədris işləri üzrə prorektora və ya təyin edilmiş şəxsə yönləndirilməlidir.

## Təhsil Proqramının Tamamlanması üçün Tələb Olunan Kompetensiyalar

Təhsil proqramının tamamlanması üçün tələbələr ümumi orta qiymət balını tələb olunan səviyyədə saxlamalıdırlar

**Bakalavr tələbələri** ümumi orta qiymət balını 2.00 səviyyəsində saxlamalıdırlar.

**Magistr tələbələri** ümumi orta qiymət balını 2.75 səviyyəsində saxlamalıdırlar.

Dərsdən imtina (W) həmin dərsi keçmək üçün bir cəhd sayılır lakin bu, dərsin tamamlanması deyil və tələbənin təhsil proqramını bitirməsi istiqamətində irəliləyişinə mənfi təsir göstərə bilər.

Bu tələblərə əməl etməyən tələbələr akademik xəbərdarlıq ala və ya universitetdən kənarlaşdırıla bilər

## Qənaətbəxş Akademik Status

Ümumi orta qiymət balı 2.00 və ya daha yüksək olan bakalavr tələbələri qənaətbəxş akademik statusa malikdirlər.

Ümumi orta balı 2.75 və ya daha yüksək olan magistr tələbələri qənaətbəxş akademik statusa malikdirlər.

## Bakalavr Təhsilinin Davamlılığı Qaydaları

Payız və yaz semestrlərinin sonunda- akademik məsləhətçi 2.00 ümumi orta qiymət balını ( saxla bilməyən tələbələrin akademik göstəricilərini nəzərdən keçirir və aşağıdakı ümumiləşdirilmiş qaydalara uyğun addımlar atır.

*Akademik sınaq müddəti*

Yay sessiyası istisna olmaqla, payız və ya yaz semestrinin sonunda tələbənin ümumi orta qiymət balı 2.00-dən aşağı düşdükdə bakalavr tələbəsi akademik sınaq müddətinə salınır . Akademik sınaq müddətində olan tələbələrdən ümumi orta qiymət balını- qaldırmaları gözlənilir. Ən azı 2.00 ümumi orta qiymət balı toplayan tələbə akademik sınaq müddətindən çıxarılır vəqənaətbəxş akademik statusa malik olur

"ADA" Universiteti tələbələrə akademik məqsədlərinə çatmaqda kömək etmək öhdəliyi götürür. Akademik sınaq müddətində olan tələbələrdən kəsildikləri dərsləri təkrarlamaları, akademik məsləhətçiləri ilə müntəzəm görüşmələri və Akademik Dəstək Xidmətləri Şöbəsinin təklif etdiyi proqramda iştirak etmələri tələb olunur.

Akademik sınaq müddətində olan bakalavr tələbəsinə bir semestrdə maksimum 24 kreditə qeydiyyatdan keçmək məsləhət görülür

Tələbəyə natamam qiymət verilir və yekun qiymət həmin tələbənin ümumi orta qiymət balını tələb olunan səviyyədən (2.00) aşağı salırsa, tələbə semestrin sonunda akademik sınaq müddətinə salınır

Bakalavr tələbələri ardıcıl üç semestrdən çox olmayaraq akademik sınaq müddətində qala bilərlər. Başqa sözlə, üçüncü sınaq dövründə olarkən payız və ya yaz semestrinin sonunda 2.00 və ya daha yaxşı ümumi orta qiymət balı əldə etməmək akademik göstəricilərə görə universitetdən xaric edilmə ilə nəticələnəcək.

Akademik göstəricilərə görə universitetdən xaric edilmə transkriptdə daimi olaraq qeyd olunur. Akademik göstəricilərə görə Universtetdən xaric edildikdən onra yenidən bərpa olunmaq mümkün deyil.

## Akademik və Peşəkar Məqsədlər üçün İngilis Dili Proqramında (EAPP) Davamlılıq Qaydaları

EAPP tələbələrinin bir səviyyəni keçməsi üçün ümumi "C" (73%) və yuxarı qiymət alması tələb olunur. Əgər tələbənin qiyməti "C"-dən (73%) aşağı olarsa , həmin tələbə səviyyəni təkrar etməlidir. Bu qayda 1-ci səviyyədə olan tələbələrə şamil olunmur.

*Akademik sınaq müddəti*

Əgər EAPP tələbəsinin əvvəlki sessiya/səviyyə üçün qiyməti "C"-dən (73%) aşağı olarsa və o səviyyəni təkrar edərsə, həmin tələbə bir sessiya/semest üçün akademik sınaq müddətinə salınır. Bu qayda 1-ci səviyyədə olan tələbələrə şamil olunmur.

*Akademik göstəricilərə görə universitetdən xaric edilmə*

Akademik sınaq  müddətinin sonunda səviyyə üzrə "C" (73%) və ya yuxarı qiymət  ala bilməmək akademik göstəricilərə görə universitetdən xaric edilmə ilə nəticələnir.

EAPP-də ümumi təhsil müddəti maksimum iki il davam edə bilər. Tələbə  iki tədris ili  ərzində və ya akademik sınaq müddətində tələb olunan səviyyəyə çata bilmədikdə,Universitetdən xaric edilir. Tələbə  xaric olunduqdan ən az bir semestr  sonra ADA Universitetinə yenidən qəbul üçün müraciət edə bilər. Yenidən qəbul ərizələri tələbənin ümumi akademik göstəricilərinə əsasən  nəzərdən keçirilir və müraciət zamanı qüvvədə olan qəbul  qaydalarına uyğun aparılır. Yenidən qəbul edilən tələbə qəbul zamanı qüvvədə olan akademik və maliyyə  qaydaları və kataloq əsasında təhsilini davam etdirir. Şərəf Məcəlləsini pozan və ya səviyyə balı "D"-dən (60%) aşağı  olduğu halda xaric edilən tələbələr Universitetə yenidən qəbul oluna bilməzlər. Yenidən qəbul hüququ olan tələbələr xaric olunduqdan ən az bir semestr sonra tələb olunan IELTS/TOEFL/PTE/Duolingo imtahan nəticələrini təqdim etməklə  təhsil aldıqları fakültəyə bərpa üçün müraciət edə bilərlər.

## Magistr Təhsilinin Davamlılığı Qaydaları

Payız və yaz semestrlərinin sonunda  akademikməsləhətçi 2.75 ümumi orta qiymət balını saxlaya  bilməyən  tələbələrin  akademik göstəricilərini nəzərdən keçirir və aşağıda ümumiləşdirilmiş  qaydalara uyğun addımlar atır.

*Akademik sınaq müddəti*

Payız və ya yaz semestrinin sonunda tələbənin  ümumi orta qiymət balı 2.75-dən aşağı düşdükdə, magistr tələbəsi akademik sınaqmüddətinə salınır. Akademik sınaq  müddətində olan tələbələrdən ümumi ı  orta qiymət balını qaldırmaları gözlənilir. Ən azı 2.75 ümumi  orta qiymət balı  toplayan tələbə akademik sınaq müddətindən çıxarılır və qənaətbəxş  akademik statusa malik olur

Akademik sınaq müddətində olan tələbələrdən   kəsildikləri dərsləri təkrarlamaları və mütəmadi olaraq akademik məsləhətçiləri ilə görüşmələri tələb olunur.

Tələbəyə natamam qiymət verilir və yekun qiymət həmin tələbənin  ümumi orta qiymət balını tələb olunan səviyyədən (2.75) aşağı salırsa, tələbə semestrin sonunda akademik sınaq müddətinə salınır

Magistr tələbələri bir semestrdən çox olmayaraq akademik sınaq müddətində qala bilərlər. Başqa sözlə, sınaq a müddətində olarkən payız və ya yaz semestrinin sonunda 2.75 və ya daha yaxşı və ya təhsilin birinci ilinin sonunda minimum 2.00 ümumi orta qiymət balı toplaya bilməmək akademik  göstəricilərə görə universitetdən xaric edilmə ilə nəticələnir.
Akademik  göstəricilərə görə universitetdən xaric edilmə transkriptdə daimi olaraq qeyd olunur.  Universitetdən xaric edildikdən sonra yenidən  bərpa olunmaq mümkün deyil.

## Ümumi Orta Qiymət Göstəricisi

Ümumi orta qiymət göstəricisi yalnız ənənəvi üsulla  qiymətləndirilən (A, A-, B+, B, B-, C+,

C, C-, D+, D, F və ya FX) və Universitet tərəfindən təklif olunan dərslərdən alınan qiymətlər əsasında hesablanır.

Aşağıdakı dərslərdən alınan qiymətlər orta qiymət göstəricisinin hesablanmasında iştirak etmir: məqbul/qeyri-məqbul əsasda qiymətləndirilən, kodu 1000-dən aşağı olan və natamam qiymət verilən dərslər.

Digər təhsil müəssisələrindən köçürülmə zamanı qəbul edilən kreditlər tədris planına əsasən tələb olunan ümumi kredit sayına daxil edilir və bu dərslərdən alınan qiymətlər "ADA" Universitetində tələbənin qiymət cədvəlində (akademik transkript) qeyd olunur, lakin məzun olmaq üçün tələb olunan orta qiymət göstəricisinin hesablanmasında iştirak etmir.

Orta qiymtə göstəricisi təhsil proqramının tamamlanması və ya akademik statusun qiymətləndirilməsi məqsədilə yuvarlaqlaşdırılmır (məsələn, 1.99 ümumi və ya semestr orta qiymət göstəricisi 2.00 olaraq yuvarlaqlaşdırılmır).

## Bakalavr Təhsil Proqramının Tələbləri

Bakalavr tələbələri Universitetə qəbul zamanı qüvvədə olan kataloqun tələbləri əsasında məzun olurlar. Kataloq ili tələbənin təhsil proqramına başladığı ildir. Tələbələr birdən çox kataloqdan seçim edərək təhsil aldıqları proqramın tələblərini "istəklərinə uyğunlaşdıra" bilməzlər.

## Akademik Fəaliyyətin Qiymətləndirilməsi

Tələbənin akademik fəaliyyətinin qiymətləndirilməsi standartları ilə bağlı mühakimə fakültənin məsuliyyətidir. Tələbələr narahatlıq doğuran hər hansı məsələ ilə bağlı Akademik apellyasiya şikayətləri qaydalarına istinad edə bilərlər. ADA Universitetində tədris olunan dərslərin heç birində vahid qiymətləndirmə komponenti ümumi dərsin qiymətinin 40%-dən çox ola bilməz.

## Akademik Apellyasiya Şikayətləri

Tərəflər arasında məsləhətləşmə yolu ilə həll olunmayan akademik məsələlərlə bağlı şikayət və ya fikir ayrılığı hallarında, Universitet tələbəyə bu sənədə əlavə edilmiş Akademik apellyasiya şikayətləri qaydalarında təsvir olunduğu kimi şikayət proseduruna başlamaq hüququnu təmin edir.

## Tələbə Qeydiyyatı Statusu

### Təhsil Proqramı Tələbələri

**Bakalavr tələbələri** payız və ya yaz semestrində ən azı 30 kredit saatı üçün qeydiyyatdan keçdikləri təqdirdə təhsilə tam zamanlı cəlb olunmuş hesab olunurlar.

**Magistratura tələbələri** birinci ilin payız və ya yaz semestrində ən azı 18 kredit saatı və ikinci ilin payız və ya yaz semestrində isı ən azı 24 kredit saatı üçün qeydiyyatdan keçdikdə təhsilə tam zamanlı cəlb olunmuş hesab olunurlar. Tələbələr birinci ilin payız və ya yaz semestrində dərsləri əlavə etmək/dərslərdən çıxmaq dövrünün bitməsindən əvvəl təhsilə qismən/tam zamanlı cəlb olunma statusunu seçməlidirlər. Birinci ilin yaz semestrində qeyd olunan dövrdən sonra təhsilə cəlb olunma statusunun dəyişdirilməsinə icazə verilmir.

Əlavə kredit saatına qeydiyyatdan keçə bilmək üçün bakalavr tələbələri ən azı 30 kredit saatını bitirməli və minimum 3.00 ümumi orta qiyməti bal toplamış olmalıdırlar. Bakalavr pilləsində əlavə dərs yükü müvafiq semestr üzrə normal tam zamanlı kredit yükünə əlavə bir olaraq dərsə qeydiyyat keçmək kimi qəbul edilir. Sonununcu kursda təhsil alan tələbələr qənaətbəxş akademik statusa malik olduqları təqdirdə əlavə dərs yükünə qeydiyyatdan keçə bilərlər.

Əlavə kredit saatına qeydiyyatdan keçə bilmək üçün magistr tələbələri ən azı bir semestri başa vurmalı və minimum 3.50 ümumi orta qiymət balı toplamış olmalıdırlar. Magistratura pilləsində əlavə dərs yükü müvafiq semestr üzrə normal tam zamanlı kredit yükünə əlavə olaraq bir dərsə qeydiyyatdan keçmək kimi qəbul edilir. Sonuncu kursda təhsil alan tələbələr qənaətbəxş akademik statusa malik olduqları təqdirdə əlavə dərs yükünə qeydiyyatdan keçə bilərlər.

## Təhsil Proqramında Qeydiyyatı Olmayan Tələbələr

"ADA" Universitetinin təklif etdiyi dərsləri keçmək istəyən, lakin elmi dərəcə almağı planlaşdırmayan və ya hələ Universitetdə tam zamanlı təhsilə cəlb olunmayan tələbələr üçüntəhsil proqramında qeydiyyatı olmadan dərslərdə iştirak imkanı yaradılır.

Təhsil proqramında qeydiyyatı olmayan tələbələrə bir semestrdə 12, ümumlikdə isə 30-dan çox kredit saatına qeydiyyatdan keçməyə icazə verilmir.

Təhsil proqramında qeydiyyatı olmayan tələbələrdən rəsmi qəbul prosesindən keçməktələb olunmur. Bununla belə, Universitet ərizəçinin "ADA" Universitetində gözlənilən akademik və peşəkar davranış standartlarını saxlamaq qabiliyyətini müəyyən etmək üçün onun ingilis dili bacarıqlarını, təhsil səviyyəsini, iş təcrübəsini və ictimai fəaliyyətini qiymətləndirmək hüququnu özündə saxlayır.Tələbələr "ADA" Universitetinin veb səhifəsində mövcud olan müvafiq formadan istifadə edərək proqrama müraciət edə bilərlər.

- Tələbələr dərslərə müvafiq qruplarda boş yer olduğu təqdirdə qeydiyyatdan keçə bilərlər.

Tələbələr "ADA" Universitetində keçdikləri dərslər üzrə qiymətləndirilir, Universitetin akademik göstərici standatına uyğun olaraq nəzarətdə saxlanılır və qiymət cədvəli ilə təmin olunurlar.

- Tələbələr "ADA" Universitetinin təhsil proqramlarına qəbul olunduqdaqazandıqları kreditləri və dərsləri Universitetin kredit köçürmə qaydalarına uyğun olaraq həmin proqramın

tərkib hissəsi kimi köçürə bilərlər. Bu cür kreditlər qəbuldan əvvəlki 2 ildən gec olmayaraq tamamlandığı halda sayıla bilər.

- Tələbələr qəbul ilində qüvvədə olan təhsil haqqı ödənişi qaydalarına əsasən ödəniş edirlər.

Təhsil proqramında qeydiyyatdan keçmədən dərslərə cəlb olunma "ADA" Universitetinə qəbula olunmağa zəmanət vermir.

## Tələbələrin Kurslar üzrə Təsnifatı

Tələbənin neçənci kursda oxuması onun qazandığı kreditlər əsasında təyin olunur. Natamam qiymətləndirilmiş dərslərin kreditləri, həmçinin kredit köçürülmə prosesində qəbul edilməyən və Universitetin təhsil proqramlarının tərkibinə daxil olmayan kreditlər kursların təyin olunmasında iştirak etmir.

Bakalavr dərəcəsində kursların təyin olunması üçün kredit saatlarının aralığı aşağıdakı kimidir:
Birinci kurs/il: 0-59 kredit saatı
İkinci kurs/il: 60-119 kredit saatı
Üçüncü kurs/il: 120-179 kredit saatı
Dördüncü kurs/il: 180-240 kredit saatı və ya daha çox

Magistr dərəcəsi üçün saatlar aşağıdakı kimidir
Birinci kurs/il: 0-41 kredit saat
İkinci kurs/il: 42-90 kredit saat və daha çox

## Dərslərin Kurslar üzrə Təsnifatı

0999 Kredit Təyin Olunmayan Dərslər
1000 Birinci kurs bakalavr dərsləri
2000 İkinci kurs bakalavr dərsləri
3000 Üçüncü kurs bakalavr dərsləri
4000 Dördüncü kurs bakalavr dərsləri
5000 Magistratura pilləsində ixtisas üzrə və ümumi əsas dərslər
6000 Magistratura pilləsində təkmil dərslər.

### Magistr dərslərinə qeydiyyatdan keçmək istəyən bakalavr tələbələri üçün tələblər

Dördüncü kursda təhsil alan və ümumi orta qiymət balı 3.00 və daha yüksək olan bakalavr tələbələrinə akademik məsləhətçiləri və dekanın razılığı ilə bakalavr səviyyəsində təhsil aldığı müddətdə 12 kredit saata qədər magistr səviyyəsində təklif oluan dərsi götürməyə icazə verilə bilər. Tələbə magistr səviyyəsində təkli olunan dərsi yalnız akademik məsləhətçisi və təhsil aldığı fakültə dekanının razılığı ilə bakalavr dərsinin əvəzləyicisi kimi götürə bilər . Bu dərs tələbənin orta qiymət balının hesablanmasına daxil edilir, qiymət cədvəlində qeyd olunur və

fərqlənmə diplomu ilə məzun olmasının müəyyən edilməsi üçün istifadə olunur.

Tələbələr bu kreditləri dərsi keçdikdən sonrakı 2 il ərzində "ADA" Universitetində magistr səviyyəsi üzrə təhsil proqramının tərkib hissəsi kimi köçürə bilərlər. Bu zaman Universitetin kredit köçürmə qaydaları tətbiq olunur.

## Dərs Qeydiyyatı

### Dərsə İlkin Qeydiyyat

Tələbələr qənaətbəxş akademik vəziyyətin və Universitetdə aktiv qeydiyyat statusunun saxlanılması ilə bağlı , o cümlədən dərslərə qeydiyyat prosesində baş verən hər hansı dəyişikliyin təhsil haqqı ödənişinə təsirlərini müəyyən etmək üçün məsuliyyət daşıyırlar. Tələbələr qeydiyyat məsələlərini və onun təsirini daha yaxşı başa düşmək üçün akademik məsləhətçilərinə müraciət edə bilərlər.

Tələbələr həmçinin qeydiyyatda olan bütün dəyişikliklərin onların rəsmi akademik məlumatlarında əks olunduğunu yoxlamaq üçün məsuliyyət daşıyırlar.

Dərsdə iştirak etmək üçün tələbələr qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan əvvəl tələbələr dərs cədvəllərini akademik məsləhətçiləri ilə planlaşdırmalıdırlar.

### Dərsləri Əlavə Etmək/Dərslərdən Çıxmaq Müddəti

Bu müddət semestrin ilk 10 gününü və ya yay sessiyası üçün ekvivalent dövrü əhatə edir. Qeyd edilən dövrdə ələbələr, akademik və ya tədris bölməsinin bunu açıq şəkildə qadağan etdiyi hallar istisna olmaqla, dərslərdən qeydiyyatdan keçə, çıxa və ya dərsin qrupunu dəyişə bilərlər. Bu, dəyişiklik prosesi onların qiymət cədvəlində əks olunmur və cərimə ilə nəticələnmir.

### Dərsə Qeydiyyatın Dayandırılması və ya Yarıda Saxlanması

Tələbə dərsdən semestrin ilk 10 günündə çıxarsa həmin dərs tələbənin akademik transkriptində qeyd olunmur. Tələbə dərsi yarıda saxlayarsa tələbənin akademik transkriptində dərsin qiyməti "W" kimi yazılır. . Hər iki halda dərs ümumi orta qiymət göstəricisinə (GPA) təsir etmir.

### Dərsə Qeydiyyatın Dayandırılması

Tələbələr dərslərin onuncu gününə qədər tələbə portalında sonuncu dərs istisna olmaqla, digər dərslərə qeydiyyatı dayandıra bilərlər.

Əgər tələbə dərsləri əlavə etmək/ dərslərdən çıxmaq müddəti bitməmiş bütün dərsləri dayandırmaq istəyirsə və başqa dərslərə qeydiyyatdan keçməzsə, bu halda akademik məzuniyyət və ya Universitetdən ayrılmaq üçün akademik məsləhətçisi ilə əlaqə saxlamalıdır. Dərsdə davamiyyətin dayandırılması və ya müəllimi məlumatlandırmaq bütün dərslərdən

rəsmi olaraq çıxmaq üçün kifayət deyil. Bütün dərslərə qeydiyyatı dayandıran tələbələr tərəfindən yaşayış üçün tutulmuş Universitet mənzilləri dərhal boşaldılmalıdır.

### Dərsin Yarıda Saxlanması

Dərsləri əlavə etmək/ dərslərdən çıxmaq müddəti başa çatdıqdan sonra tələbələr dərsin yarıda saxlanması formunu doldurub Tələbə Qəbulu və Qeydiyyat Şöbəsinə təqdim etməklə semestrin onuncu həftəsinin və ya yay sessiyasının ekvivalent dövrünün sonuna qədər dərsi yarıda dayandıra bilərlər. Xüsusi akademik proqramlara qeydiyyatda olan və ya xarici tələbələrə dərsin dayandırılması ilə bağlı bəzi əlavə məhdudiyyətlər şamil oluna bilər. Əlavə məhdudiyyətlər Universitetin minimum tələblərini ödəmək üçün istifadə olunan dərslərə da şamil oluna bilər.

Tələbələr semestrin onuncu həftəsinin sonuna qədər və ya digər sessiyalar üçün ekvivalenttarixlərdə dərsi yarıda dayandırarsa həmin dərs üçün "W" qiyməti qeyd olunur. Dərsdə davamiyyətin dayandırılması və ya müəllimin məlumatlandırılması tələbənin dərsdən çıxış prosesinin təşkili üçün kifayət deyil. Tələbə Şərəf Kodeksini və ya Tələbə Davranış Kodeksini pozmaqda ittiham olunarsa, dərsdən çıxış qaydaları tətbiq olunmaya bilər.

Tələbə dərsin onuncu həftəsindən sonra dərsdən çıxa bilməz.

Tələbələr Universitetdə təhsil aldıqları müddətdə cəmi dörd və semestr ərzində isə bir dərsdən imtina edə bilərlər. Akademik sınaq müddətində olan bakalavr tələbələri bir semestrdə iki dərsdən imtina edə bilərlər.

## Müvəqqəti Məzuniyyətə Görə Dərslərin Dayandırılması

Müvəqqəti məzuniyyət tələbənin müəyyən bir müddət üçün Universitet təhsilinə fasilə verməsidir və bu müddətin sonunda tələbənin təhsilini bərpa etməsi gözlənilir. Tələbə akademik bölməsi ilə məsləhətləşdikdən sonra müvəqqəti məzuniyyət üçün müraciət edə bilər..

Dörd növ müvəqqəti məzuniyyət var:

- ümumi,
- tibbi,
- hərbi,
- travma və yas icazəsi .

Tibbi məzuniyyət yalnız şəxsi sağlamlıq səbəblərini əhatə edir. Ailə üzvlərinin sağlamlıq səbəbləri ümumi müvəqqəti məzuniyyətlə əhatə olunur.

Müvəqqəti məzuniyyətdə olan tələbələr Universitetdə aktiv tələbə statusuna malik olmur , bu səbəbdən onların "ADA" Universitetinin imkanlarından istifadəsi ictimaiyyətə verilən imtiyazlarla məhdudlaşır. Tələbələr müvəqqəti məzuniyyətin yaşayış yeri, təhsil haqqına maliyyə yardımı və təhsil proqramının tamamlanması istiqamətində akademik göstəricilərə

təsirinə görə məsuliyyət daşıyırlar. Beynəlxalq tələbələrin müvəqqəti məzuniyyət götürməsi onların tələbə vizası statusuna təsir edə bilər. Bu səbəbdən onlara Tələbə Xidmətləri Şöbəsində Qlobal Təbliğat və Tərəfdaşlar Ofisi ilə məsləhətləşmək tövsiyə olunur.

Müvəqqəti məzuniyyət müddətinin sonunda tələbə statusunun bərpa olunması üçün müraciət etməyən tələbələr avtomatik olaraq Universitetdən xaric olunurlar.

Universitetdən xaric olunan tələbələr yenidən qəbul üçün müraciət etməli və cari qəbul meyarlarına və təhsil proqramı tələblərinə cavab verməlidirlər.

Tələbələr iki il müddətindən çox məzuniyyət götürə bilməzlər.

### Ümumi Müvəqqəti Məzuniyyət

Müvəqqəti məzuniyyət götürmək istəyən tələbələr öz akademik məsləhətçiləri ilə görüşməli və müvəqqəti məzuniyyət üçün müraciət formasını doldurmalıdırlar. Akademik bölmə müvəqqəti məzuniyyət müraciətini təsdiq və ya rədd edəcək və müvəqqəti məzuniyyətə icazəverildiyi zaman Tələbə Qəbulu və Qeydiyyat Şöbəsinə məlumat verəcəkdir. Tələbələr müvəqqəti məzuniyyət üçün semestrin ilk on günündən gec olmayaraq müraciət etməlidirlər.

Tələbə məzuniyyət müddətində hər hansı yerli və ya xarici kollec və ya universitetdə oxuyarsa, akademik bölmədən başqa institutda təhsil almaq üçün və ya tibbi səbəblərə görə icazə , almazsa, müvəqqəti məzuniyyət etibarsız sayılır.

### Tibbi Səbəblərə görə Müvəqqəti Məzuniyyət

Tələbələr öz akademik məsləhətçiləri vasitəsilə və müvəqqəti məzuniyyət üçün müraciət formasını dolduraraq tibbi məzuniyyət tələb edə bilərlər. Tibbi səbəblərə görə müvəqqəti məzuniyyətin müddəti şəxsi sağlamlıq səbəbi ilə əlaqədar bir ilə qədər ola bilər. Tələbə tibbi halı təsdiq edən sənədləri müvəqqəti məzuniyyət üçün müraciət forma ilə birlikdə təqdim etməlidir. Təsdiqlənmiş forma yoxlanılmaq üçün Tələbə Qəbulu və Qeydiyyat Şöbəsinə göndərilir.

Dərsin yarıda dayandırılması müddəti bitdikdən sonra tibbi məzuniyyət tələb edən tələbə bütün dərslərdən natamam qiymətlər alır. Belə tələbə yalnız natamam qiymət qaydaları əsasında bütün natamam qiymətlərini tamamladıqdan sonra təhsilini davam etdirə bilər.

Tələbə təhsilini davam etdirməyə hazır olduqda, tələbə Universitetə bərpa üçün mqraciət formasını Tələbə Qəbulu və Qeydiyyat Şöbəsinə təqdim etməlidir.

### Hərbi Xidmətə görə Müvəqqəti Məzuniyyət

Tələbələrdən hərbi mükəlləfiyyəti və öhdəlikləri yerinə yetirmək üçün Universitetdə təhsilini dayandırmaq tələb oluna bilər. Bu halda tələbələr akademik məsləhətçilərinə məlumat verməli

və hərbi xidmətə çağırış sənədinin surəti ilə birlikdə müvəqqəti məzuniyyət üçün müraciət formasını Tələbə Qəbulu və Qeydiyyatı Şöbəsinə təqdim etməlidirlər.

Tələbələr müvəqqəti məzuniyyət müddəti bitdikdən sonra tələbə statusunun aktivləşdirilməsi prosesini başlatdığı dövrdə Universitet hələ də tələbənin daha əvvəl təhsil aldığı proqramı təklif edərsə, təhsillərini eyni proqramda Və onlar ayrıldıqları zaman qüvvədə olan akademik qaydalara uyğun olaraq davam etdirə bilərlər.

### Travma və Yas Səbəbindən Müvəqqəti Məzuniyyət Qaydaları

Ailədə bədbəxt hadisə və ya şəxsi travma baş verdiyi halda, tələbələr dərs üzrə tapşırıqları tamamlamaq üçün alternativ tədbirlər görməlidirlər. Tələbələr və ya onların səlahiyyətli nümayəndəsi akademik bölmə ilə əlaqə saxlaya bilər. Tələbələr semestri başa vurmağın və ya növbəti semestrdə kampusa qayıtmağın onların maraqlarına uyğun olmadığını düşünürlərsə, onlar müvəqqəti məzuniyyət götürməyi və ya Universitetdən ayrılmağı seçə bilərlər

## Xüsusi Statuslu Dərslər

### Audit məqsədli dərs qeydiyyatı

Tələbələr audit məqsədi ilə götürdükləri dərslərdən kredit almırlar. Tələbələr audit məqsədi ilə hər semestrdə maksimum iki dərsə qeydiyyatdan keçə bilərlər. Yay sessiyasında audit məqsədli dərs qeydiyyatına icazə verilmir.

Müəllim audit məqsədi ilə qeydiyyatdan keçən tələbələr üçün dərsdə iştirak və/və ya davamiyyət standartlarını müəyyən edə bilər. Tələbə bu standartlara cavab vermədikdə, müəllim "ZO" qiymətini təyin edir ( davamiyyətə görə kəsilmə).

### Yekun layihə

Həm bakalavr, həm də magistr tələbələrindən təhsil proqramlarının bir hissəsi kimi bir Yekun layihə yazmaq tələb olunur. Yekun layihə əsasən praktiki xarakterdə olmalıdır. Fakültə dekanı yekun layihinin xarakterini və həcmini müəyyən edir və tədris proqramına xüsusi tələblər daxil edilir. Yekun layihənin strukturu, məzmunu və qiymətləndirilməsi, həmçinin imtahanın yenidən keçirilməsi ilə bağlı bütün qaydalar akademik bölmə tərəfindən müəyyən edilir.

### Magistr dissertasiyası

Magistr tələbələri təhsillərinin birinci tədris ilinin sonuna qədər tədqiqat mövzusu seçə bilərlər. Belə tələbələr magistr dissertasiyası yazirlar. Dissertasiya işi yazan tələbələrdən mövzuya uyğun müstəqil tədqiqat aparmaq qabiliyyətini nümayiş etdirmələri gözlənilir. Magistr dissertasiyası 18 kredit saatına bərabərdir.

Dissertasiya işi üzrə məsləhət komitəsi "ADA" Universitetinin professor-müəllim heyətinin ən azı iki üzvündən ibarət olmalıdır. Tələbə komitə sədri ilə məsləhətləşərək seçdiyi komissiya üzvlərinin adlarını təsdiq üçün dekan müavini və ya təyin olunmuş şəxsə təqdim etməlidir.

Dissertasiya imtahan komissiyası tərəfindən yekun təsdiq edildikdən sonra elektron formatda Universitet kitabxanasına təqdim edilməlidir. Diplom tələblərinin yerinə yetirilməsi məqsədilə dissertasiyanın Universitetə təqdim edilməsi "ADA" Universitetinəsənədin ictimayyətə açıq kitabxana resurslarında dərc etmək üçün birdəfəlik, qeyri-müstəsna hüquq verir. Sənədin nəşri tələbə tərəfindən müəyyən edilmiş və Universitet tərəfindən təsdiq edilmiş buraxılış tarixindən asılıdır. Tələbələr dissertasiyanın müəllif hüquqlarının sahibi kimi öz işlərini çoxaltmaq, yaymaq, onun əsasında elmi işlər yazmaq, ictimaiyyətə təqdim və nümayiş etdirmək, digərlər şəxslərə isə bu hüquqların bir qismi və ya hamısından istifadə səlahiyyəti vermək üçün müstəsna hüquqa malikdir.

## Bakalavr və Magistr Tələbələri üçün Təcrübə və Karyera İnkişafı Bacarıqları

Bütün bakalavr tələbləri ixtisasları üzrə bakalavr dərəcəsi almaq üçün "ADA" Universitetində təhsilinin bir hissəsi olan Karyera inkişafı dərsinin tərkibində kreditli təcrübə proqramına yazılmalıdırlar.

Bakalavr tələbələri üçüncü təhsil ilində Karyera İnkişafı Bacarıqları və Strategiyaları dərsinə qeydiyyatdan keçir. Dərsə qeydiyyat üçün bakalavr tələbələri ən az 120 , magistr tələbələri isə 36 krediti tamamlamalıdırlar. Bakalavr pilləsində Karyera İnkişafı Bacarıqları və Strategiyaları dərsi üçün ayrılan kredit saatları 6 AKTS olaraq müəyyən edilmişdir. Təcrübə proqramı dərsin tələb olunan bir hissəsi olub eyni akademik ilin yaz semestri və ya yay dərsin sessiyasında tamamlanmalıdır . Karyera İnkişafı Bacarıqları və Strategiyaları dərs komponentindən keçə bilməyən tələbələr kreditli təcrübə proqramına keçməzdən əvvəl dərsi təkrar götürməlidirlər. Dərsin təcrübə komponentindən keçə bilməyən tələbələr minimum 120 saatlıq iş tələbini yerinə yetirməklə yalnız tələb olunan təcrübə hissəsini təkrar etməlidirlər.

Dərsin təcrübə proqramı komponentindən kredit qazanmaq üçün tələbələrdən ümumi tələbləri - hər bir təcrübə üçün minimum 4-6 həftə ərzində minimum 120 saatı - tamamlaması tələb olunur.

İctimai və Beynəlxalq Münasibətlər və Təhsil Fakültəsinin bütün əyani proqramlarının magistr tələbələri üçün "ADA" Universitetində təhsil proqramları çərçivəsində texniki seçmə fənn kimi kredit əsaslı təcrübə dərsi təklif olunur.

Texniki seçmə fənni kimi magistratura üzrə kredit tələb edən təcrübə dərsi üçün 6 AKTS krediti müəyyən edilmişdir. Kredit əsaslı təcrübə dərsində ümumi tələb - sinifdaxili təcrübə seminar saatları da daxil olmaqla minimum 5-6 həftə ərzində ən az 180 iş saatıdır.

Tələbələr müəllimlərinin icazəsi ilətəcrübə müddətinin sonuna qədər ümumi minimum tələbləri tamamladığı halda planlaşdırılmış təcrübə saatlarını dəyişdirə bilərlər. Tələb olunan minimum saatdan çox işləməyi seçən tələbələr dərs kreditinə təsir etmədən bunu edə bilərlər. Təcrübə proqramı ödənişi və ya ödənişsiz ola bilər. Təcrübə proqramı "ADA" Universiteti müəlliminin rəhbərliyi altında həyata keçirilir və əhəmiyyətli təcrübə komponenti olan iş tapşırıqlarını da özündə ehtiva edir . Təcrübə üçün müəllim və tədris bölməsinin təsdiqi tələb olunur. Hər hansı bir təcrübə proqramının vacib komponenti tələbənin akademik kreditqazanmaq üçün kifayət qədər əsaslı işlə təmin edə biləcək iş yeri ilə təmin olunmasıdır. Akademik kredit almaq üçün ixtisasüzrə iş yükü inzibati işdən daha çox olmalıdır, yəni qeyri-inzibati işlər ümumilikdə yerinə yetirilən işin ən az altmış faizini (60%) təşkil etməlidir.Dərsin müəllimi tələbəyə dərs və təcrübə üçün aydın təlimatlar olan akademik proqram təqdim etməli, tələbə ilə müntəzəm əlaqə saxlamalı və təcrübənin əsasını təşkil edən və dəstək əhəmiyyətli tapşırıqları tələb etməlidir. Təyin olunmuş mentor tələbənin təcrübə fəaliyyətinin qiymətləndirilməsinə cavabdehdir və bu, iş yeri rəhbəri tərəfindən qiymətləndirməni ehtiva etməlidir. İş yeri rəhbərinin qiymətləndirməsi yekun qiymətin yarısından çox ola bilməz. Dərsin akademik komponenti yekun qiymətin ən azı yarısı kimi qiymətləndirilməlidir.

Təcrübə və bakalavr pilləsində Karyera İnkişafı Bacarıqları və Strategiyaları (KİBS) dərsi Məqbul/Qeyri məqbul kimi qiymətləndirilir. Kredit əsaslı təcrübə proqramı keçmək üçün ətraflı təlimat və formalar KİBS dərsi çərçivəsində fakültə üzrə karyera məsləhətçisi tərəfindən tələbələrə təqdim olunur. Texniki seçmə fənn kimi təcrübə proqramı keçən magistr tələbələri dərsin müəllimi tərəfindən sinifdaxili seminarlar çərçivəsində müfəssəl dərs proqramı ilə təmin edilməlidir.

## Əvəzedici Dərslər

Dərsin bağlanması səbəbindən kəsir qiyməti alınan dərsin təkrarlanması və ya təhsil proqramı üzrə tələb olunan hər hansı bir dərsin götürülməsi mümkün olmadığı hallarda, tələbə həmin dərsin məzmunca əhəmiyyətli dərəcədə oxşar olduğu, digərbir dərs ilə əvəz edilməsi üçün müraciət edə bilər. Əvəzedici dərs ilkin dərs ilə eyni səviyyədə olmalıdır. Aşağı kurs dərsləri yuxarı kurs dərslərini əvəz etmək üçün istifadə edilə bilməz.

Tələbənin akademik məsləhətçisi və tələbə proqramının dekanı dərs əvəzetmə formasını imzalayaraq əvəzetməni təsdiq etməlidir. Təsdiq olunarsa, yeni dərsin qiyməti ümumi orta qiymət göstəricisinin (ÜOMG) hesablanmasına iştirak edir. Bağlanmış dərsin təkrarlanması halında birinci dərsdən alınan qiymət akademik transkriptdə ulduz işarəsi ilə qeyd olunur və ÜOMG və kredit sayından xaric edilir. Əvəzedici dərsin qiyməti ÜOMG hesablanmasında və qazanılmış kredit sayında iştirak edir.

Dərsin bağlanması və əvəzetmənin mümkün olmadığı hallarda akademik məsləhətçi və dekanın razılığı ilə tələbəyə tədris proqramının tələbi olan dərsi götürməmək üçün güzəşt verilir. Dərsə güzəşt verilməsi məzun olma üçün ümumi kredit tələblərini azaltmır.

## Aktiv Tələbələr Sırasından Xaric Edilmə

### Könüllü ayrılma

Növbəti semestrdə Universitetdən ayrılmaq istəyən qənaətbəxş akademik statusa malik olan tələbələr Tələbə Qəbulu və Qeydiyyat Şöbəsinə məlumat verməlidirlər və semestr ərzində akademik göstəriciləri Universitetdən xaric olunma ilə nəticələnmədiyi halda , dərslərin son günü də daxil olmaqla istənilən vaxt müraciət edə bilərlər.

Universitetdən ayrılmağı düşünən tələbə daha uyğun alternativlərin olub-olmadığını müəyyən etmək üçün mümkün qədər tezakademik bölmə ilə məsləhətləşməlidir.

Ayrılma təşəbbüsü tələbə və ya Universitetin nümayəndəsi tərəfindən başladıla bilər.

Son dərs günündən sonra müraciət edən və ya akademik sınaq müddətində olan tələbələr tərəfindən təqdim olunan Universitetdən ayrılma ərizələri yalnız tələbənin akademik göstəriciləri xaric olunma ilə ilə nəticələnməyəcəyi təqdirdə akademik bölmə tərəfindən təsdiq edilir.

Universitetdən ayrılma aktiv tələbə statusunun ləğv edilməsi ilə nəticələnir.

Semestr üzrə dərslərə qeydiyyat hüququ olan, lakin qeydiyyatdan keçməyən tələbələr Universitetdən kənarlaşdırılır.

Ayrıldıqdan sonra, akademik statusu qənaətbəxş, 1-ci akademik sınaq müddətində olan və hər hansı akademik statusa malik olmayan tələbələr növbəti ildə yenidən aktiv tələbə statusunu bərpa etmək üçün Universitetin Tələbə Qəbulu və Qeydiyyat Şöbəsinə müraciət edə bilərlər. Universitetdən dərsi dayandırma müddəti bitdikdən sonra ayrılan tələbələr növbəti semestrdə tələbə statusunun bərpa olunması üçün müraciət edə bilməzlər. Bu tələbələr ən az bir semestr sonra təhsillərini davam etdirə bilərlər. Universitetdən ayrılan və yenidən qəbul edilən tələbələr hər hansı səbəbdən ikinci dəfə Universitetdən ayrıldıqda yenidən qəbuloluna bilməzlər.

### Məcburi Qeyri-Akademik Uzaqlaşdırma

Universitet bir tələbəni intizam və ya cinayət mühakimə icraatı və ya bu cür icraatlarla əlaqəli davranışları ilə bağlı tibbi ekspertiza rəyi gözlənilən müddətdə Universitetdən uzaqlaşdıra bilər.

Müvəqqəti uzaqlaşdırma , tələbənin Universitetdə davamiyyətinin onun özü, başqaları və ya Universitetin normal fəaliyyətinin sabitliyi və davamlılığı üçün əhəmiyyətli təhlükə yaratdığına dair sübutlar olduqda, əvvəlcədən xəbərdarlıq edilmədən dərhal qüvvəyə minir Müvəqqəti uzaqlaşdırma tələbələri universitet binalarından və digər imtiyazlardan istifadədən və ya fəaliyyətlərdən məhrum edir.

# Tələbə Qəbulu və Qeydiyyat Şöbəsi

Tələbə Qəbulu və Qeydiyyat Şöbəsi hazırkı və keçmiş tələbələrin bütün akademik qeydlərinin bütövlüyünü, düzgünlüyünü və təhlükəsizliyini təmin edir; effektiv tələbə qeydiyyatını həyata keçirir; tələbə sənədlərinin təhlükəsiz saxlanma sistemini qurur, idarə edir və onlardan məsuliyyətli istifadə üçün qaydalar və prosedurları təyin edir; aktual dərs cədvəli və kataloqları, həmçinin imtahan cədvəllərini qurur və tənzimləyir; sinif otaqlarından səmərəli istifadəni idarə edir; və Banner Tələbə Məlumat Sisteminə nəzarət edir və onu qoruyur.

Tələbə Qəbulu və Qeydiyyat Şöbəsi kreditlərin köçürülməsi, bakalavr və magistr təhsil proqramları üzrə buraxılış və sertifikatlaşdırılmanı, qəbul və məzun olmanın yoxlanılmasını, rəsmi transkriptlərin və diplomların verilməsini, və məzun gününün təşkilini həyata keçirir. Şöbə tələbələrə, professor-müəllim və işçi heyətinə akademik məsələlərlə bağlı məsləhət və tövsiyyələr verir,həmçinin Universitetin qaydalarını və milli təhsil standartlarını şərh və tətbiq edir.

Tələbə Qəbulu və Qeydiyyat Şöbəsi aşağıdakılara cavabdehdir:

- Tələbə informasiya sistemlərinin idarə edilməsi (Banner Student Information System [əvvəlki sistem])
- Universitetin akademik qaydalarının şərhi və tətbiqi
- Azərbaycan qanunvericiliyinə uyğun olaraq akademik sənədlərin hazırlanması
- Dövlət qurumları üçün akademik hesabatların hazırlanması
- Akademik xidməti asanlaşdırmaq və təkmilləşdirmək üçün bütün universitet bölmələri ilə əməkdaşlıq edilməsi
- Akademik qeydiyyat, dərsləri əlavə etmək/dərslərdən çıxmaq və dərsi dayandırma prosesinin idarə edilməsi
- Akademik planlaşdırma
- İmtahan cədvəlinin hazırlanması
- Xüsusi görüşlər üçün sinif otaqlarının rezerv edilməsinə ümumi nəzarət və s.
- Universitetin akademik təqviminin hazırlanması
- Universitetin təhsil proqramlarının sertifikatlaşdırılması
- Fərqlənmə ilə məzun olmanın yoxlanması
- Universitetin ofis və şöbələrinə tələbə ilə bağlı məlumatların verilməsi
- Tələbə qeydlərinin təhlükəsizliyinin təmin edilməsi
- Tələbələrə akademik transkriptlərin verilməsi
- Akademik məsləhət dəstəyinin göstərilməsi
- İxtisas üzrə məlumatların və bir ixtisasdan digərinə köçürülmələr üçün müraciətlərin yoxlanılması
- Tədris proqramlarının hazırlanması və dəyişdirilməsinə köməklik göstərilməsi
- Akademik göstəricilər , dərsin əvəz olunması, , qiymət dəyişiklikləri və əlavə dərs yükü müraciətləriin təsdiqi daxil olmaqla akademik qaydalara istisnaların qeydə alınması
- Akademik apellyasiya şikayətlərinə baxılmasıTələbələrin müvəqqəti məzuniyyət və dərsin yarıda dayandılırması müraciətlərinin monitorinqi

- İllik tələbə qəbulu planının hazırlanmasına köməklik göstərilməsi

Tələbə Qəbulu və Qeydiyyat Şöbəsi hazırda təhsil alan, keçmiş və perspektiv tələbər də daxil olmaqla Universitetin bütün tələbələrinə xidmət edir. Əlavə məlumat üçün şöbə əməkdaşları ilə elektron formada və ya ofisə yaxınlaşaraq əlaqə saxla mümkündür.

## Akademik formalar

Aşağıdakı qeyd olunan ərizə formaları "ADA" Universitetinin veb səhifəsində mövcuddur . Müraciətin qeydə alınması üçün hər bir forma ayrıca çap edilməli , doldurulmalı və imzalanmalıdır. Doldurulmuş və imzalanmış formalar Tələbə Qəbulu və Qeydiyyat Şöbəsinin records@ada.edu.az elektron poçt ünvanına göndərilməli və ya müvafiq əməkdaşa təqdim edilməlidir.

Kredit köçürülməsi üçün müraciət forması

Akademik pellyasiya şikayəti forması

Qiymət dəyişikliyi üçün müraciət forması

Natamam qiymətin verilməsi üçün müraciət forması

İxtisas dəyişikliyi üçün müraciət forması

Ad/soyad dəyişdirməsi üçün müraciət forması

Universitetə bərpa üçün müraciət formasıMüvəqqəti məzuniyyət üçün müraciət forması

Dissertasiya işinin təsdiq olunması üçün müraciət forması

Universitetdən ayrılmaq üçün müraciət forması

Tələbə Qəbulu və Qeydiyyat Şöbəsi ilə əlaqə :

Tel: (+994 12) 437 3235

Fax: (+994 12) 437 3236

E-poçt: records@ada.edu.az; registration@ada.edu.az

# TƏDRİS PROQRAMLARI

## Terminlərin izahı

Prerekvizit– müəyyən dərsə qeydiyyatdan keçmədən öncə tələbənin tamamlamalı olduğu dərsdir. Əksərən, prerekvizit tələbənin daha yuxarı kursda keçilən dərsi götürməsi üçün lazım olan bilik və bacarıqları özündə əks etdirir və aşağı kurslarda tədris olunur. Məsələn, Data strukturu və Alqoritmlər (CSCI 2304) dərsinə qeydiyyatdan keçmək üçün ilkin olaraq Proqramlaşdırma Prinsipləri 1 (CSCİI1101) dərsini minimum "B-" və ya Proqramlaşdırma Prinsipləri 2 (CSCI 1202) dərsini "D" qiyməti ilə keçmək tələb olunur.

Korekvizit bu tələbənin digər dərsə qeydiyyatdan keçməsi üçün eyni zamanda götürməli olduğu dərs tələbidir. Məsələn, Fizika 1 (PHYS 1201) dərsi Fizika Laboratoriyası 1 (PHYS 1201L) dərsinə qeydiyyatdan keçmək üçün müəyyən edilən şərtdir. Buna görə də tələbə bu iki dərsə eyni anda qeydiyyatdan keçməlidir .

Anti rekvizit- məzmunca oxşar dərslərdir. Buna görə də tələbə anti rekvizit sayılan iki dərsi götürə bilməz. Məsələn, Biznes statistikası (STAT 2301) dərsi Statistikaya giriş (STAT 1101 ) dərsinin anti rekvizit dərsi sayılır. Bu səbəbdən Biznes statistikası (STAT 2301) dərsini tədris planının tərkib hissəsi olaraq götürən tələbələr Statistikaya giriş (STAT 1101 ) dərsinə qeydiyyatdan keçə bilməzlər .

## Təhsil Fakültəsi

Qəbul ili - 2023

Dərslərin sahələr  üzrə bölgüsü (CA)

MC – əsas ixtisas dərsləri
TE – ixtisas üzrə seçmə dərslər
EN – peşəkar inkişaf dərsləri

*2023-cü ilin payızı semestrindən əvvəl qeydiyyatdan keçmiş tələbələr düzgün tədris proqramı və dərs kodlarındakı dəyişikliklər haqqında məlumat üçün akademik məsləhətçilərinə müraciət etməlidirlər.

## Menecment (təhsilin təşkili və idarə olunması)

| | | COURSE CODE | CA | COURSE TITLE | ECTS | ANTIREQ | COREQ | PREREQ |
|---|---|---|---|---|---|---|---|---|
| FIRST YEAR | FALL | EDUC 5100 | MC | Proseminar in Educational Leadership | 6 | | | |
| | | SOCS 5101 | MC | Inquiry I: Data - driven Decision Making for School Improvement & Learner Attainment | 6 | | | |
| | | CIAS 5152 | MC | Curriculum & Assessment | 6 | | | |
| | | EAPP 5100<br>EAPP 5101<br>TGLG 5100 | MC | English for Academic Purposes I<br>*or*<br>English for Academic Purposes II<br>or<br>Azerbaijani Language and Literature I (for students from Georgia) | 6 | | | |
| | SPRING | MIDS 5222 | MC | Inquiry II: Evaluating Programs & Practices | 6 | | | |
| | | PADM 5203 | MC | Organizational Behavior & Management | 6 | | | |
| | | FINC 6303 | MC | Budgeting & Finance in Educational Organizations | 6 | | | |
| | | EAPP 5101<br>EAPP 5200<br>TGLG 5200 | MC | English for Academic Purposes II<br>*or*<br>English for Academic Purposes III<br>or<br>Azerbaijani Language and Literature II (for students from Georgia) | 6 | | | |
| SECOND YEAR | FALL | LAWE 6300 | MC | Legal Issues in Education | 6 | | | |
| | | EDUC 5101 | MC | Project Management (with Focus on Educational Projects) | 6 | | | |
| | | EDUC 6390<br>EDUC 6399 | MC | Education Policy & Strategy- Capstone I or<br>Master's Thesis I | 6 | | | |
| | | WRIT 5102 | MC | Advanced Writing & Academic Discussion<br>*or*<br>Academic Writing in Azerbaijani | 6 | | | |
| | SPRING | EDUC 6302 | MC | Educational Policy | 6 | | | |
| | | EDUC 6490<br>EDUC 6499 | MC | Education Policy & Strategy - Capstone II or<br>Master's Thesis II | 12 | | | |
| | | | | | ***Total credits: 90*** | | | |

# Təlim və tədrisin təşkili və metodikası

<table>
<tr><th></th><th></th><th>COURSE CODE</th><th>CA</th><th>COURSE TITLE</th><th>ECTS</th><th>ANTIREQ</th><th>COREQ</th><th>PREREQ</th></tr>
<tr><td rowspan="8">FIRST YEAR</td><td rowspan="4">FALL</td><td>SOCS 5100</td><td>MC</td><td>Contemporary Issues in Teacher Education</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td>SOCS 5101</td><td>MC</td><td>Inquiry I: Data-driven Decision Making for School Improvement & Learner Attainment</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td>CIAS 5152</td><td>MC</td><td>Curriculum & Assessment</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td>EAPP 5100<br>EAPP 5101<br>TGLG 5100</td><td>MC</td><td>English for Academic Purposes I<br>or<br>English for Academic Purposes II<br>or<br>Azerbaijani Language and Literature I (for students from Georgia)</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="4">SPRING</td><td>CIAS 5252</td><td>MC</td><td>Inquiry II: Course Planning & Evaluation</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td>CIAS 5151</td><td>MC</td><td>Fundamentals of Effective Teaching & Learning</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td>SOCS 5151</td><td>MC</td><td>Educational Psychology</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td>EAPP 5101<br>EAPP 5200<br>TGLG 5200</td><td>MC</td><td>English for Academic Purposes II<br>or<br>English for Academic Purposes III<br>or<br>Azerbaijani Language and Literature II (for students from Georgia)</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="6">SECOND YEAR</td><td rowspan="4">FALL</td><td>CIAS 6305</td><td>MC</td><td>Teacher Leadership</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td>CIAS 6304</td><td>MC</td><td>Inclusive Education</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td>CIAS 6390<br>CIAS 6399</td><td>MC</td><td>Teaching Strategy - Capstone I (Reflective Teaching Portfolio) or Master's Thesis I</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td>WRIT 5102</td><td>MC</td><td>Advanced Writing & Academic Discussion<br>or<br>Academic Writing in Azerbaijani</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="2">FALL</td><td>PDEV 6300</td><td>EN</td><td>Micro-Teaching</td><td>6</td><td></td><td></td><td></td></tr>
<tr><td>CIAS 6490<br>CIAS 6499</td><td>MC</td><td>Teaching Strategy - Capstone II (Reflective Teaching Portfolio) or Master's Thesis II</td><td>12</td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="9">Total credits: 90</td></tr>
</table>

## İctimai və Beynəlxalq Münasibətlər Fakültəsi

Qəbul ili - 2023

Dərslərin sahələr  üzrə bölgüsü (CA)

MC – əsas ixtisas dərsləri
EN  – peşəkar inkişaf dərsləri

# Dövlət qulluğunun təşkili və idarə edilməsi

| | | COURSE CODE | CA | COURSE TITLE | ECTS | ANTIREQ | COREQ | PREREQ | MODULE |
|---|---|---|---|---|---|---|---|---|---|
| FIRST YEAR | FALL | ECON 5100 | MC | Managerial Economics | 6 | | | | 1 |
| | | PADM 5100 | MC | Public Administration & Management | 6 | | | | 2 |
| | | SOCS 5102 | MC | Research Methods & Data Collection | 6 | | | | 3 |
| | | STAT 5101 | MC | Data Analysis | 6 | | | | 4 |
| | | EAPP 5102<br>EAPP 5202 | EN | English for Civil Servants I *or*<br>English for Civil Servants II | 6 | | | | 3 times a week online |
| | SPRING | FINC 5202 | MC | Budgeting & Finance in Public Organizations | 6 | | | | 5 |
| | | MGMT 5200 | MC | Project Management | 6 | | | | 6 |
| | | LAWP 5200 | MC | Public Law | 6 | | | | 7 |
| | | ECON 5200 | MC | Local Economic Government | 6 | | | | 8 |
| | | PADM 5200 | MC | Human Resource Management | 6 | | | | 9 |
| | | EAPP 5202<br>EAPP 5203 | EN | English for Civil Servants II *or*<br>English for Civil Servants III | 6 | | | | 3 times a week online |
| | SUMMER | COMM 5300 | EN | Communication for Civil Servants | 6 | | | | 10 |
| SECOND YEAR | FALL | PADM 6490 | MC | Public Policy & Strategy - Capstone | 18 | | | | 11 |
| | | | | ***Total Credits:*** | ***90*** | | | | |

# LÜĞƏT

**Akademik bölmə:** Müstəqil fakültə  və ya Universitet Kitabxanası; İctimai və Beynəlxalq Münasibətlər Fakültəsi, Biznes Fakültəsi, Təhsil Fakültəsi, İnformasiya Texnologiyaları və Mühəndislik Fakültəsi, Hüquq Fakültəsi, Memarlıq və Dizayn Fakültəsi, Kənd Təsərrüfatı və Qida Elmləri Fakültəsi və Universitet Kitabxanasıdır.

**Aktiv tələbə statusu:** Aşağıdakı meyarlardan birinə cavab verən tələbə Universitetdə aktiv statusa malik sayılır;  dərsə qeydiyyatdan keçmişdir,  mübadilə proqramında iştirak edir, bir semestr üçün müvəqqəti məzuniyyət götürmüşdür və ya təhsil icazəsi alaraq başqauniversitetdə dərslərdə iştirak edir.  Müvəqqəti məzuniyyət üçün müraciət etmədən və ya təhsil icazəsi almadan dərslərə qeydiyyatını dayandıran, akademik səbəblərdən xaric olunan və ya  növbəti semestr üzrə dərslərə qeydiyyatdan keçməyən  tələbələr Universitetdə aktiv tələbə statusunu itirirlər. Növbəti semestr üzrə dərslərə qeydiyyatdan keçməyən və müvəqqəti məzuniyyət və ya təhsil icazəsi almayan tələbələr inzibati olaraq təhsil müəssisəsindən xaric edilirlər.

**Üzrlü səbəbdən iştirak etməmə:** Tələbələr əsas dini bayramlar, tibbi səbəblər, tələb olunan başqa sinif və ya ailə ilə əlaqəli "ADA" Universitetinin kampusdankənar fəaliyyətlərində iştirak daxil olmaqla, lakin bunlarla məhdudlaşmayan səbəblərə görə dərsdən və ya imtahanda iştirakdan üzürlü şəkildə qala bilərlər. Müəllimlər üzrlü iştirak etməmə üçün sənədləri tələb  etmək hüququna malikdirlər.

**Sənədləşdirilmiş əlillik:** Əlillik sənədlərini təqdim edən tələbələr Fərqlilik və İnklüziv Təhsil Şöbəsinə (FİTŞ)  yerləşdirmə tələb edə bilərlər. Tələbələrin yaşayış yerləri ilə təmin  edilə biləcəyi əlillik nümunələrinə öyrənmə əlilləri, autizm spektr pozuntusu, diqqət çatışmazlığı, hiperaktivlik pozuntusu, kar və eşitmə, kor və görmə qabiliyyəti zəif olanlar, həmçinin tibbi, psixoloji və fiziki qüsurlar daxildir. Tələbələr qəbul prosesində əlilliklərini müəyyən  sənədi təqdim etməklə və ya bunu etmədən Universitetə daxil ola bilərlər. Əlillik üçün yaşayış yerlərinin münasib olduğuna inanan bütün tələbələr məsləhətçi ilə görüş təyin etmək üçün Fərqlilik və İnklüziv Təhsil Şöbəsinə baş çəkməyə təşviq olunurlar.

**Tədris bölməsi:** Akademik bölmə daxilində proqram, institut və ya mərkəz.